Bakı tarixin ən böyük Şahmat Olimpiadasına evsahibliyi edir

Sentyabrın 1-dən 14-dək Bakıda keçiriləcək Ümumdünya Şahmat Olimpiadasına artıq iki gün qaldı. Bir neçə mühüm beynəlxalq tədbirə uğurla evsahibliyi etmiş paytaxtımız indi möhtəşəm şahmat yarışına tam hazırdır. Oyunlarla bağlı bütün hazırlıq işləri tamamlansa da, şahmatın təbliği istiqamətində hələ də mühüm tədbirlər həyata keçirilir. Bunlardan biri də paytaxt küçələrində şahmat avtobusunun fəaliyyətə başlamasıdır.




# Şahmat həyəcanı ilə paytaxt gəzintisi



Bu avtobus bir neçə gündür ki, şəhərin küçələrində bəlli marşrut üzrə hərəkət edir. Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsindən verilən məlumata görə, Mədəniyyət və Turizm Nazirliyinin balansında olan səyahət avtobuslarından biri brendləşdirilib, şahmat avtobusu kimi şəhər sakinlərinin və qonaqlarının istifadəsinə verilib. Sözügedən ikimərtəbəli nəqliyyat vasitəsi paytaxt küçələrində şəhərin ən görməli yerlərində pulsuz fəaliyyət göstərir və şahmatın təbliğini həyata keçirir. Eyni zamanda turda iştirak edənlərin avtobusda şahmat oynaması və Bakı Şahmat Olimpiadası haqda məlumatlar əldə etməsi üçün lazımi şərait yaradılıb.

Şahmat avtobusu ilə tanış olmaq, eləcə də, şəhər sakinlərinin şahmata olan marağını öyrənmək üçün avtobusun marşrutu üzərindəki "Sabir bağı" dayanacağına yollandıq. Hələ avtobusa çatmamış bir nəfər xüsusi geyimli xanım bizə yaxınlaşaraq şahmat oynamağa, həmçinin şəhəri pulsuz gəzmək üçün avtobusa dəvət etdi. Beləliklə, kənardan rəngarəng görünən və üzərində "Şahmat zəkanı burada göstər" yazısı ilə diqqət çəkən avtobusa yaxınlaşdıq.

Bizi Şahmat Avtobusu layihəsinin koordinatoru Fəxri Quluzadə qarşıladı. O, əvvəlcə layihə barədə məlumat verdi. Bildirdi ki, avtobus hər gün səhər saat 10:00-da "Crystal Hall"dan start götürür. Şəhərdə görünməsi və brendin təbliği üçün saat 16:00-a qədər müəyyən edilmiş marşrut üzrə hərəkət edir. Şahmat həvəskarları isə saat 16:00-dan 21:00-a qədər burada şahmat oynaya bilirlər: "Oyun marşrutumuz Azadlıq meydanından başlayır. 28 May, Qız qalası və Sabir bağının ətrafı dayanacaq yerlərimizdir. Yekun dayanacağımız yenə də Azadlıq meydanıdır. Avtobusda istənilən şahmat həvəskarı ödəniş etmədən gəlib şahmat oynaya bilər. Burada sponsor dəstəyi ilə istifadəçilərə sərinləşdirici içkilər veririk. Həmçinin istifadəçilər sentyabr ayının 1-dən 14-dək keçirilən Şahmat Olimpiadası haqqında istənilən suallara cavab tapa bilərlər. Onlara oyunlarla bağlı müxtəlif məlumatları özündə əks etdirən broşürlər paylanılır".



F.Quluzadə avtobusa turistlərin də maraq göstərdiyini dedi. Onun sözlərinə görə, könüllülər xarici dildə onlara lazım olan məsələni izah edir, eyni zamanda oyunlar barədə məlumat verirlər.

Öyrəndik ki, avtobus gün ərzində 5 saat fəaliyyət göstərir. Bu müddət ərzində şahmat oynayanlar üçün hər cür şərait yaradılır. Azyaşlı uşaqlardan tutmuş, yaşlı insanlara kimi hər kəs bu layihəyə böyük maraq göstərir. Hətta oyun həvəskarları bəzən növbə gözləyirlər ki, uduzan dursun, onun yerində əyləşsin. Bu isə oyunçular arasında sağlam rəqabət yaradır.





Avtobusda yaradılan şəraiti görmək və şahmat həvəskarlarının oyununu izləmək üçün nəqliyyat vasitəsinə daxil olduq. Səkkiz ədəd oyun masası artıq dolmaq üzrə idi. Hər kəs diqqətini oyuna cəmləmişdi. Kondisioner və sərinkeşlərlə təchiz edilmiş avtobusda tam sakitlik hökm sürürdü. Bələdçimiz bildirdi ki, oyunlar üçün istifadəçilərə heç bir məhdudiyyət qoyulmur, oyun nə zaman bitsə, onda da durub gedə bilərlər. Buna görə də bəzən bir oyun 3-4 saat çəkir. Elələri də var ki, şahmatı vaxtla oynayırlar. Bunun üçün hər bir masa saatla təmin edilib.

Oyun masalarından birinə yaxınlaşdıq. Bakı şəhər sakini Nəcəf Rüstəmov bu layihə, eyni zamanda oyunla bağlı fikirlərini bizimlə bölüşdü: "Bu tədbirin təşkili çox uğurludur. Belə sosial layihələr gənclər arasında maariflənməyə xidmət edir. Həm də onlar bir növ əylənirlər. Biz gənclər belə layihələrin tez-tez həyata keçirilməsini istəyirik. Şahmat Olimpiadası yaxınlaşır. Çox güman ki, bu Olimpiada nəticəsində insanlar arasında şahmat oyunlarına maraq daha da artacaq. Yarışdan sonra da bu cür tədbirlərin davam etdirilməsi məqsədəuyğun olar".

Şahmatla uşaq vaxtından həvəskar kimi məşğul olan Nəcəf bu avtobusdan artıq ikinci dəfədir ki istifadə etdiyini dedi: "Birinci dəfə iki gün əvvəl burada olmuşdum. Buranın əməkdaşları 28 May ərazisində məni avtobusa dəvət etmişdilər. Hazırda şahmat oynadığım həmkarımla heç bir tanışlığım yoxdur. Oyun masasında tanış olmuşuq. Bunun özü də gözəl məqamdır ki, tanımadığın insanlarla oynayırsan, yeni dostlar qazanırsan".

Qonşu masada əyləşən digər oyunçu Ruslan Əliyev də bildirdi ki, şahmat avtobusu ideyası məhz gənclərimiz üçün çox maraqlı və xeyirli bir təşəbbüsdür: "Şəxsən mən bir neçə dəfə burada şahmat oynamışam və görürəm ki gənclərimizin şahmata marağı çox böyükdür. Bakı Şahmat Olimpiadasında hər kəsə uğurlar arzulayıram. Oyunçu aparsın!"

Avtobusdakı şahmat həvəskarlarının diqqətini çox yayındırmamaq üçün aşağı düşdük. Burada Şahmat Olimpiadasının simvolu "Şahoğlan" şahmat həvəskarları, eləcə də digər şəhər sakinləri ilə şəkil çəkdirir, onları avtobusa səsləyirdi. Ətrafdan keçən insanlar da ona maraqla baxır, əl yelləyirdilər. Qeyd etməliyik ki, Şahmat Olimpiadasının təbliği təkcə brendləşdirilmiş avtobusda aparılmır. Olimpiadanın talismanı "Şahoğlan" turistlərin sıx olduğu yerlərdə də tanıtımla məşğuldur.

Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsinin direktoru Mahir Məmmədov mətbuata açıqlamasında bildirib ki, Şahmat Olimpiadasının hazırlıq mərhələsinə yekun vurulub. 42-ci Şahmat Olimpiadasının iştirakçı komandaları avqustun 25-dən etibarən Bakıya gəlməyə başlayıblar. Artıq idmançılar, hakimlər, jurnalist və konqres iştirakçıları qeydiyyatdan keçiblər. Hotellər və yarış zalı Olimpiadaya tam hazırdır. Bakı Şahmat Olimpiadasının açılış mərasimi sentyabrın 1-də saat 19:00-da Milli Gimnastika Arenasında keçiriləcək. Açılış mərasiminin tərtibatçısı ukraynalı rejissor Viktor Knışdır.

Qeyd edək ki, sentyabrın 1-dən 14-dək Bakıda keçiriləcək Ümumdünya Şahmat Olimpiadasında iştirak üçün 182 komanda, 176 ölkə qeydiyyatdan keçib. Ölkələrin təmsilçiliyinə görə, bu, tarixdə ən yüksək göstəricidir. Beləliklə, Bakı dünyanın ən böyük Şahmat Olimpiadasına evsahibliyi edəcək.

***Elgün MƏNSİMOV,***
***"Azərbaycan"***